# Dağıstan xalqı görkəmli dövlət xadimi Əziz Əliyevin misilsiz xidmətlərini heç vaxt unutmayacaq

Dekabrın 26-da Bakıda "Dərbənd" xeyriyyə cəmiyyəti görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsinə həsr olunan anım tədbiri təşkil edib.

AZƏRTAC xəbər verir ki, "Dərbənd" xeyriyyə cəmiyyəti sədrinin birinci müavini, tarix elmləri doktoru, ehtiyatda olan birinci dərəcəli kapitan Nurulla Əliyev tədbirdə məruzə ilə çıxış edərək görkəmli dövlət və partiya xadimi Əziz Əliyevin tarixi xidmətlərindən söz açıb, onun həyat və fəaliyyəti barədə ətraflı məlumat verib.

Bildirib ki, 1897-ci il yanvarın 1-də qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının Hamamlı kəndində anadan olan professor, məşhur pedaqoq, səhiyyə və təhsil sahəsində əvəzsiz təşkilatçı, böyük alim, diplomat Əziz Əliyev ölkəmizin tarixində silinməz iz qoyub. Əziz Əliyevin həyat yolu elmi, pedaqoji, ictimai və dövlət fəaliyyəti sahələri ilə zəngin olub. Görkəmli dövlət xadimi Azərbaycanda səhiyyənin təşkili sahəsində xüsusi rol oynayıb.

Qeyd edilib ki, Əziz Əliyev Azərbaycan SSR-in xalq səhiyyə komissarı, Azərbaycan SSR Ali Sovetinin sədri, Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi, Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru kimi mühüm vəzifələrdə çalışdığı dövrlərdə özünü bacarıqlı dövlət xadimi və səhiyyə sahəsində təşkilatçı kimi göstərib. Onun Dağıstanda birinci katib olduğu illər Dağıstan-Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olduğu dövr hesab edilir. Sonrakı illərdə Əziz Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi olub, SSRİ Ali Sovetinin və Dağıstan Ali Sovetinin deputatı seçilib.

Bildirilib ki, görkəmli dövlət xadiminin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilib. O, bir çox orden, medal



və fəxri fərmanlarla təltif edilib. Hazırda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakıda, Naxçıvanda və Mahaçqalada küçələr və s. Əziz Əliyevin adını daşıyır.

N.Əliyev vurğulayıb ki, 2007-ci ildə Əziz Əliyevin 110 illik yubileyi münasibətilə Dağıstanda keçirilmiş yubiley tədbirlərində çıxış edən Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev ölkəsinə xidmət göstərmiş görkəmli siyasi və ictimai xadimlərin sırasında Əziz Əliyevin adının daim xüsusi hörmət və ehtiramla çəkildiyini bildirib. Qeyd olunub ki, Böyük Vətən müharibəsində Qələbə münasibətilə Dağıstan əhalisinin rəhbərinə inam və sədaqət rəmzi olaraq hədiyyə etdiyi xəncər hazırda Azərbaycan Milli Tarix Muzeyində saxlanılır.

Azərbaycan-Dağıstan əlaqələrindən söz açan N.Əliyev bildirib ki, ulu öndər Heydər Əliyevin səyləri nəticəsində xalqlarımız arasında bütün sahələrdə münasibətlər sürətlə inkişaf edib. Ümummilli Liderin diqqət və qayğısı nəticəsində hər iki respublikada tanınmış şəxslərin yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi bunun əyani göstəricisidir. Qafqaz xalqları qarşısında əvəzsiz xidmətləri olan iki dahi şəxsiyyətin - Şeyx Şamilin və Əziz Əliyevin yubileylərinin həm Azərbaycanda, həm də Dağıstanda dövlət səviyyəsində qeyd olunmasında ulu öndər Heydər Əliyevin rolu danılmazdır.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də Azərbaycan və Dağıstan xalqları arasında əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Məhz bu diqqətin nəticəsidir ki, son illərdə hər iki respublika arasında müxtəlif sahələrdə əlaqələr sürətlə inkişaf edir. Dərbənd şəhərinin 2000 illik yubiley tədbirlərində Azərbaycandan nümayəndə heyətinin iştirakı, Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun Mahaçqala şəhərində Əziz Əliyevin abidəsinin ucaldılmasına dair imzaladığı Sərəncam, Prezident İlham Əliyevin Sərəncamı ilə Dərbənddə mədəni obyektlərin yenidən qurulmasına vəsait ayrılması, Heydər Əliyev Fondunun dəstəyi ilə təhsil müəssisələrinin binalarının əsaslı təmiri və s. faktlar hər iki respublika arasında əlaqələrin inkişafının göstəriciləridir.

Sonra "Dərbənd" xeyriyyə cəmiyyətinin üzvləri çıxış edərək Əziz Əliyevin xalqlarımız arasındakı əlaqələrin inkişafında misilsiz xidmətlərindən danışıb, onun qayğıkeş alim, tanınmış həkim və müəllim kimi xatirəsinin daim qəlblərdə yaşayacağını bildiriblər. Çıxış edənlər Azərbaycan və Dağıstan respublikaları arasında münasibətlərin inkişafında mühüm layihələr həyata keçirən Heydər Əliyevin Fondunun və onun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rolunu xüsusi vurğulayıblar.

Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru Yaqub Mahmudov rəhbərlik etdiyi elm ocağında Azərbaycanın qədim şəhəri olan Dərbəndin tarixinin öyrənilməsinə mühüm əhəmiyyət verildiyini söyləyib. Bildirilib ki, Əziz Əliyevin siyasi fəaliyyətinin Dağıstan dövrü xalqlarımız arasındakı əlaqələrin ən şanlı səhifələrini təşkil edir. Məhz Əziz Əliyevin sayəsində dağıstanlıların öz yurdlarından sürgün edilməsinin qarşısı alınıb. Əziz Əliyevin yaşadığı dövr araşdırılarkən İrəvanın qədim Azərbaycan torpağı olduğu, ermənilərin isə bu ərazilərə sonralar köçürüldüyü danılmaz faktlarla bir daha təsdiqlənir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi Müzəffər Talıblı çıxışında bildirib ki, vətənpərvər ziyalı, dövlət xadimi, gözəl insan olan Əziz Əliyev Dağıstanda böyük imperiyanın və ermənilərin məkrli siyasətinin qarşısının alınması kimi məsul vəzifənin öhdəsindən layiqincə gəlib.

Sonra Əziz Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətinə həsr olunan şəkillər nümayiş etdirilib.

Sonda cəmiyyətin üzvləri adından Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun Mahaçqala şəhərində Əziz Əliyevin abidəsinin ucaldılmasına dair imzaladığı Sərəncama görə minnətdarlıq məktubu oxunub.

**AZƏRTAC**